# "Müxalif düşüncəli insanlarla fərdi qaydada işləyirik"

## Adil Əliyev: “Sənətçilərlə biz o qədər də qabağa gedə bilmərik”

*Millət vəkili Adil Əliyev Adalet.az-a müsahibə verib. Müsahibəsində bir sıra məqamlara toxunan millət vəkili jurnalistlərin fəaliyyətindən narazı olduğunu dilə gətirib. Adil Əliyev həmçinin növbəti 5 ildə görəcəyi işlərdən danışıb...*

**-Adil müəllim, növbəti devalvasiyadan sonra ölkədəki ictimai-siyasi vəziyyəti necə dəyərləndirirsiniz?**

-Ölkədə ictimai-siyasi vəziyyəti qənaətbəxş hesab etmək olar. Bunun üçün hökumət davamlı addımlar atır. Eyni zamanda ölkədə sabitliyin qorunması, əməkhaqlarının artırılması və bu kimi hallar ictimai-siyasi vəziyyətin normal qalmamasını şərtləndirən amillərdir. İqtisadi böhrana gəlincə, bu, bütün dünyada baş verən bir hadisədir. Bütün dünya böhranla mübarizə aparır. Ancaq buna baxmayaraq Azərbaycandakı vəziyyət Şərqi Avropa və MDB ölkələrinə baxanda gözəldir.

**-Dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə Apellyasiya Şuraları yaradılır. Sizcə, Apellyasiya Şuralarının yaradılması ümumi işə nə dərəcədə təsir edəcək?**

-İndiki halda format dəyişilməlidir. Böhran idarəetmə sisteminə keçmişiksə müəyyən tədbirlər görülməlidir. Artıq bu istiqamətdə mühüm işlər görülür. Dövlət başçısı İlham Əliyevin göstərişi ilə Milli Məclisə bir sıra yeni qanun layihələri təqdim olunur. Bir sıra hüquqi-normativ aktlar üzərində ciddi iş aparılır. Bütün bu işlər vətəndaşlarımızın rifahı naminədir. Bu baxımdan yeni yaradılan Apellyasiya Şuralarının Azərbaycanda sahibkarlığın inkişafına mühüm töhvə verəcəyinə əminəm.

**-Post-neft dövrünə keçidlə bağlı hər hansı təklifləriniz varmı?**

-Bir çox təkliflərim var. Bu təkliflərin bir çoxu mənim təmsil olunmadığım komitələrin fəaliyyət sferasına aid olduğu üçün Milli Məclis qarşısında çıxış etmirəm. Ancaq bir neçə təklif və layihələrim var ki, bunlarla bağlı yaxın zamanlarda aidiyyəti qurumlara müraciət edəcəm. Bu layihələrin reallaşdırılması 10 minlərlə vətəndaşımızın işlə təmin olunması deməkdir. Güman edirəm ki, biz nəzərdə tutduğumuz işləri reallaşdıracağıq və bu yöndə aidiyyəti qurumlar bizə dəstək olacaq.

**-Adil müəllim, ABŞ Konqresində anti-Azərbaycan qanun layihəsi müzakirəyə çıxarılacaq. Bir millət vəkili kimi bu qanunun qəbuluna inanırsınızmı?**

-İnanmıram ki, bu qanun qəbul olunsun. Bunu deməyə əsaslarım da var. Birincisi odur ki, bu gün kriminal hadisə törədib həbs cəsasına məhkum edilənləri siyasi məhbus kimi təqdim edirlər. Halbuki Azərbaycanda siyasi məhbus yoxdur. Bunu prezident İlham Əliyev də öz çıxışlarında dəfələrlə deyib. Bundan əlavə bu gün Azərbaycan müstəqil siyasət yürüdür. Bu siyasət nə qərbin, nə ABŞ-ın diktəsi ilə həyata keçirilir. Bu isə bəzi dairələri ciddi narahat edir. Onlarda olan məlumatlar isə həqiqəti əks etdirmir. ”Sapı özümüzdən olan baltalar”ın göndərdikləri yanlış informasiyanın əsasında Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirirlər və nəticə etibarilə ilə belə bir qanun layihələri meydana çıxır. Yəni onu demək istəyirəm ki, bu qanun layihələrinin heç bir əsası yoxdur. Əsası olmayan qanunun qəbulu isə reallığa söykənmir. Bu baxımdan mən inanıram ki, qanun layihəsi qəbul olunmayacaq.

**-Bir sıra qərb dairələrinin Azərbaycana qarşı ikili standartlardan çıxış etdiyinin şahidi oluruq. Bunu Azərbaycan diasporunun ayağına yazmaq olarmı?**



-Təəssüflər olsun ki, Azərbaycanda maddi marağa söykənib, anti dövlətçiliklə məşğul olan QHT-lər var. Bunların fəaliyyəti dəfələrlə təftiş olunub, onlarla bağlı müəyyən ölçülər götürülüb. Ancaq bunun kökünü birdəfəlik kəsmək mümkün olmayıb. Məhz bu gün də ölkəmizə qarşı ikili standartlar həmin QHT-lərin fəaliyyətinin (əslində mən bunu fəaliyyət adlandıra bilmirəm) nəticəsidir. Bu kimi təşkilatlar haqqı qoyub nahaqqı deyirlər. Bəli, bu gün elə məsələlər var ki, həmin məsələlər bir millət vəkili olaraq məni də ciddi narahat edir. Ancaq onlar bunu demirlər.

**- Türkiyənin ”Sabah” qəzetində də Azərbaycana qarşı kampaniya aparılır. Bu məsələyə ciddi reaksiya vermisiniz...**

- Bu, Türkiyə dövlətinin siyasəti deyil. İnsanların marağından irəli gələn bir kampaniyadır. Bunun da arxasında Azərbaycan və Türkiyənin birliyini istəməyən qüvvələr dayanır. Suyu bulandırmaq istəyirlər. Bu kimi faktlara dəfələrlə rast gəlmişik. Təəssüf ki, bu gün də bu davam edir.

**-Bu kimi halların qarşısını almaq üçün hansı addımların atılması zəruridir?**

-Bu kimi kampaniyaların qarşısını almaq üçün ilk öncə güclü birlik nümayiş olunmalıdır. Elə insanlar var ki, onların türklərlə tanışlıq əlaqəsi çox genişdir, lakin heç vaxt dövlət maraqlarından çıxış etmirlər. Bir dəfə də olsun türkləri Şəhidlər Xiyabanına aparmır, Quba məzarlığı ilə tanış etmirlər. Bu sevgi gərək insanların özündə olsun. Bədbəxtçiliyimiz ondadır ki, o insanlar bu dövlətdən istifadə edirlər. Ancaq bu istifadə heç zaman dövlət maraqları üçün olmayıb.

**-Adil müəllim, aparılan araşdırmalar da onu deməyə əsas verir ki, bizdə İctimai qınaq aşağı səviyyədədir. Bəlkə bu ondan irəli gəlir?**

-Bu məsələnin bir tərəfidir. Digər tərəfi isə jurnalistlərlə bağlıdır. Düşünürəm ki, bu gün təhlil aparan jurnalistlərimizin sayı azdır. Bəzi dırnaqarası jurnalistlərimiz işlərini bədbəxtçilik üzərində qurublar - kim-kimi vurdu, filan məmuru işdən çıxardılar, döydülər... Bu jurnalistika deyil, bu ”Sarı mətbuat”dır, bu tip yazıları bulvar qəzetləri yaza bilərlər. Əsl jurnalist isə ciddi araşdırma aparmalıdır, məsələyə hərtərəfli yanaşmalıdır. Bu gün efirlərimizdə hansısa maraqlar üzərində qurulan verilişlər reytinq qırır. İnsanlar həmin verilişləri maraqla izləyirlər. Sənətçilər gündəmdən düşmür. Ancaq gəlin görək ölkədə nə qədər iqtisadçı ekspert var. Cəmiyyət bunları tanıyırmı? Xeyr. Çünki bu iqtisadçılar TV-lərə çıxmır, TV-lərə çağırılmırlar. Sənətçilər də bizlərdəndir, ancaq onlarla biz o qədər də qabağa gedə bilmərik. Problemlərimiz həddindən artıq çoxdur.

**-Sosial şəbəkədə aktiv millət vəkillərindənsiniz. Bu aktivlik sizə nə verir?**

- Çox şey. Sosial şəbəkə mənə zaman qazandırır. Tutaq ki, bir məsələ baş verir. Jurnalist dostlarımız da çoxdur. Maşallah hər gün də yeni bir sayt yaranır... Zəng edirlər ki, Adil müəllim, bu məsələyə fikir bildirin. Mən gün ərzində 1-2 jurnalistə cavab verə bilərəm. Ancaq sosial şəbəkədə bir məsələyə münasibət bildirirəm. Bura açıqdır. Hər kəs girir, görür, oxuyur. Dostların bir çoxu da təmənnasız bu məsələni informasiyaya çevirib tirajlayırlar. Ona görə də sosial şəbəkələr mühüm rol oynayır.

**-Dostluğunuzda müxalif düşüncəli insanlar varmı?**

-Bəli, var. Özü də kifayət qədər. Onlarla fərdi qaydada işləyirik. Hər hansı bölgədən, rayondan olmasından asılı olmayaraq bu düşüncədə olan insanların fikirlərini oxuyuram. Onlara cavab yaza bilməsəm də, görüşə dəvət edirəm. Mən söhbət əsnasında onlara izah edirəm ki, düz deyilsiniz.

**-Belə görüşlər olubmu?**

-Çox olub. Hətta Sabirabadın kəndindən, İmişlidən, Gəncədən görüşdüyüm insanlar olub. Məcbur edib çağırmışam, gəliblər, görüşmüşük. Hamısı da mənlə razılaşıb. Bu gün artıq məni dəstəkləyən insanlara çevriliblər.

**-Yeri gəlmişkən, Kikboksinq Federasiyası olaraq növbəti yarışa hazırlaşırsınız. Yarış barəsində nə deyə bilərsiniz?**

- Son ildə federasiyanın işçi heyətini gücləndirmişik deyə, bu gün kikboksinq gözəçarpacaq qədər inkişaf edib və işimiz uğurlar davam edir. İşimiz yaxşıdır. Üzvlərimizin, klublarımızın sayı çoxalıb. Günü-gündən də yeni klub açmaq istəyən qurumlar müraciət edirlər. Gələn ay 22-ci Azərbaycan çempionatı keçiriləcək. Bütün idman sevənləri bu yarışları izləməyə dəvət edirəm.

**-Mədəniyyət xadimləri arasında dostlarınız çoxdur. Günümüzün mövzusu isə mədəniyyət xadimləri arasında gedən söz davasıdır. Hətta belə bir təklifdə var ki, onların adları geri alınsın...**

-Bu təcrübə özünü doğrultmur. Bəzən görürsən ki, sosial şəbəkədə 5-10 nəfər yığışır ki, millət vəkilinin mandatı əlindən alınsın. Onun 45-50 min seçicisi var. Millət vəkili o qədər ağılsız oldu ki, işlərini səhv qurdu, qanunsuz işlərlə məşğul oldu? Son zamanlar yazırlar ki, mətbuat üstünə getdi deyə filankəsi işdən çıxardılar. Məsələyə zamanında reaksiya vermək lazımdır. Mən elə bir mətbuat orqanı tanımıram ki, hamıya eyni münasibət bəsləsin.

**-Çox zaman mətbuat qınanılır. Cəmiyyətin də istəkləri nəzərə alınmalıdır...**

-Cəmiyyətin fikirlərini yazmalıdırlar. Bəzən isə həqiqəti yazmırlar. Bu yaxınlarda qohumumuzla bağlı mətbuatda məlumat dərc olundu. Həmin andan hadisə qaldı bir tərəfdə, hər kəs bizi hədəf aldı. Bu məsələ ilə bağlı açıqlama verdim. Cəmi 3-5 sayt yayımladı. Niyə? Demək, o insanlar bu informasiyanı maraq xatirinə yaymışdı.

**Müsahibənin bu yerində Adil Əliyev maraqlı lətifə də danışdı. Onu siz oxucuların diqqətinə çatdırmaq istərdik:** ”Xaricdə yol polisi sürücüdən pul almaq üçün qəribə bir üsula əl atır. Sürücüləri saxlayır. Baxır ki, bütün sənədlər qaydasındadır. Pul çıxarmaq üçün başlayır sürücüləri sorğu-sual eləməyə. Sürücüyə sual verir ki, akkumluyatorun tokunu ayırsam, hansı təkər buraxacaq? Sürücülər təbii ki. tərəddüd edir və suala cavab verə bilmirlər. Polis bu minvalla 3-5 sürücüdən əməlli pul alır. Sonda daş qayaya rast gəlir. Polisin sualına cavab tapmayan sürücü polisin özünə sual verir ki, mantirovka ilə başını yarsam hansı ayağın işləməyəcək?”

İndi məsələ qalıb bir kənarda, bəziləri ucuz reytin qazanmaq istəyirlər. Reytinq qazanmaq üçün edirsənsə, o zaman gəl denən ki, Adil Əliyev, səndən yazmaq istəyirəm. Mən də deyim ki, filan yerdə evim var, filan yerdə villam var. Gəlsinlər hamısını deyim. Buna görə də heç kimdən qorxmuram.

**-Bəzi jurnalistlərin fəaliyyətindən narazılığınızı dilə gətirirsiniz. Bununla bağlı Mətbuat Şurasına hər hansı müraciətiniz olubmu?**

-Bəli. Mətbuat Şurasına bir neçə jurnalistlərlə bağlı müraciətim olub. Hal-hazırda da sayt və jurnalistlə məhkəmə çəkişməm var.

**-”Adil İnsan” kitabını vərəqləyirəm... Maraqlıdır. Yeni kitab yazmaq haqqında düşünürsünüzmü?**

-Mən bu 5 ildə seçicilərimə və dövlətimə daha yararlı olmaq istəyirəm, daha fəal olmağı qarşıma məqsəd qoymuşam. Bütün görülən işlərin yekunu kimi 2020-ci ildə yeni kitab ərsəyə gətirmək istəyirəm.

**Ədil Ədilzadə**